ədalət.-2017.-4 fevral.-S.12.



Tural Cəfərli

## Düşün...

Unut, bütün olanları unut,
Təsəvvür et, yuxu idi, oyandın.
Ya da bir film idi,
Kofe içərək baxdın...
Get, pəncərəni aç,
Otağın havasını dəyiş.
Saçlarını dara,
Düşün,
düşün ki, xoşbəxt günlərin
qabaqdadı,
Tələsmə, hələ vaxta var.
Bu günün qayğılarını qucaqla,
Problemlərinə sarıl,
Varsa kədərinə sığal çək...
Düşün, düşün ki, Tanrı sənə baxır,
Gülümsəyir,
hər addımında, hər duruşunda
Səni izləyir...
Bağışla, bu gün səbr elə,
Sabah yaxşı olacaq.
Günəş səni sevəcək,
Saçlarını oxşayıb,
Sənə şeir deyəcək...

## Allaha məktub

Əvvəl özünü unudasan,
Sonra qonşudakı itin adını.
Ümidləri itirəsən biryolluq,
Qaçırasan tənhalığın dadını.
Uzaq bir şəhərə bilet alasan,
Yükün bir çamadan azadlıq ola.
Son qəpiyi dilənçiyə verəsən,
Zəngin arzularla çıxasan yola.
İçəsən buludların sağlığına,
Göy "təşəkkür" edə sənə yağışla.
Sonra məktub göndərəsən Allaha,
Yazasan ki, "gedənləri" bağışla...

Münhendə çəkilən şəkil
Münhen küçələrində
Çəkilən şəkillərinə baxıram...
Saçların küləyin nəvazişi ilə,
daranır...
Solğun bir səhərin
İsti baxışında qızınır bu şəhər...
Əlindəki çanta
Sənin saf gülüşünün
şahidi olur...
Bir də bu şəkillərə
Baxan insanın
Ürəyinə həsrətdən
acı dolur...
Bu şəhərin ən gözəl yeri
Sənin dayandığın yerdi...
Sən keçdiyin küçələrdə
Adamı xoşbəxtlik tutur.
Sən olduğun yerin adı,
Ümidsiz günlərdən çıxmaqdı...
Sənsiz bütün şəhərlər,
Solmaqdı, saralmaqdı, darıxmaqdı...

## Ümid mayakı

Gəmi kimi lövbər salmışam,
Sənsizlik dənizinə.
İndi "SOS " siqnalı verirəm,
Unutmaq əvəzinə.
Ayrılıq dalğaları,
Mənim boyumdan hündür.
Ümid adlı mayakım,
Hələ gözə görünmür.
Həsrətin sahilində,
Yer yoxdu qayıqlara.
Batan gəmi ev olur,
Axırda balıqlara.

## Təsəlli

Həsrətini
Göz yaşına bükmüşdü
Solğun baxışında...
"Əlvida" sözünün
Şəkli çəkilmişdi
Qara gözlərində...
O qızın ürəyi
Ayrılığın baş kəndi olmuşdu,
Əllərimin isti yaddaşına,
Xatirələr dolmuşdu...
Bir görüş,
Bir ümid,
İndi sənsiz keçən ömrümün
Ən böyük təsəllisi...

## Sevginin orfoqrafik düzəlişi

Bu sevgiyə vergül qoyma,
Boşluq olsun qoy arxası...
Nida qoyma, sual qoyma,
Üç nöqtə qoy ən yaxşısı...
Uzlaşmayan ürəkləri,
Mötərizə içinə al.
Həsrət dolu cümlələri,
Dırnaq arasına sal.
Sevmək adlı başlıqların,
Altından qara xətt çək.
Ayrılığı bitişik yaz,
Belə yaxşı görünəcək.

## Qızım üçün...

Sən dünyaya gəlişinlə,
Dünyamı təzələdin.
Ümidsiz günlərimi,
İşığa qərq elədin.
Evimizi isitdin,
Nə xoş ki bizə gəldin.
Məni bu gənc yaşımda,
Xoşbəxt ata eylədin.
Bu ən böyük səadət,
Ən böyük mükafatdı.
Xoşbəxtliyin əsası,
Qız atası olmaqdı.
İndi mənim ömrümə,
Gəlib çiçəkli bir yaz.
Sən ömrümün mənası,
Mələyim, qızım Bəyaz.